DOI:10.30546/gdu.2023.147-151

**UOT 94**

# GÜNEY AZƏRBAYCANDA MİLLİ HƏRƏKATIN DÜŞMƏNLƏRİ
## (İranda XX əsrdə baş verən etno mədəni proseslər)

***dosent Kazimi Pərviz Firudin oğlu***
***Bakı Dövlət Universiteti***
parvizkazimi@gmail.com

**Xülasə:** *XX əsrdə İran adlanan cografiyada baş verən sosial, siyasi və iqtisadi proseslər orada formalaşan dövlətlərin milli-mədəni proseslərə münasibətinə də öz təsirini göstərdi. İnqilablarla zəngin olan iyirminci əsrdə milli, dini, ideoloji və siyasi proseslərin nəticəsində mədəni seqreqasiya həyata keçirilməyə başlandı və bu proses hal0hazıtda da davam etməkdədir.*

*Məqalə konkret tarixi faktlara əsaslanaraq XX əsrdən başlayaraq İranda yaradılmış dövlətlərin müxtəlifliyinə baxmayaraq həyata keçirdiyi seqreqasiyanın bu gün də qorunub saxlanılması hadisəsini öyrənir və mədəni aporteidun dini, ideoloji və siyası xüsusiyyətlərini üzə çıxarır.*

**Açar sözlər:** Mədəni aparteid, linqvistik seqreqasiya, milli identifiklik, milli hüquqlar, mədəni repressiya

**Key words***:* Cultural apartheid, linguistic segregation, national identity, national rights, cultural repression

**Ключевые слова***:* Культурный апартеид, языковая сегрегация, национальная идентичность, национальные права, культурные репрессии.

### Giriş

XX əsrin əvvəllərindən başlayaraq qətiyyətlə demək olar ki, Güney Azərbaycanda milli azadlıq hərəkatı büyük bir cografiyada hakim düşüncəyə çevrilmiş və insanlar ilk fürsətdə milli hüquqlar, milli dövlətçilik və milli dəyərlər sistemi üzərində qurulmuş dövlət ugrunda mübarizəyə başlamış, inqilablar etmişdir. XX əsrin siyasi hərəkat tarixinə baxarıqsa, Səttərxan hərəkatı, Xiyabani hərəkatı, 21 Azər hərəkatı və 1979-cu ildə qələbə çalmış "ziddiistibdad" (*anti-şah*) hərəkatı Güney Azərbaycan milli azadlıq tarixinin dönməz, barışmaz və son məqsədə çatana qədər durmayacagına inam yaradır.

Zəngin mübarizə tariximizdən dərs almaq, səhvlərimizi təkrar etməmək, "düşdüyümüz çuxura" bir daha düşməmək üçün tarixi yaddaşımızı qorumalı, yazmalı və gələcək nəsillərə ötürməliyik.Necə oldu ki, biz milli istismara məruz qaldıq,müstəmləkəyə çevrildik,başqalarının bizi istismar etməsinə imkan yaratdıq?Görəsən, İran cografiyasında Azərbaycan türklərindən başqa hansı xalqlardır ki, dominantdır, üstünlüyə malikdir, digərlərini assimiliasiya etməyə qadirdir və dönüşü olmayan proseslər baş verməkdədir?

Məşrutə hərəkatına xəyanət etmiş Qacarlar hökuməti Tehranda Məclis qarşısında Səttərxan və onun dəstəsini top atəşi ilə dagıdan erməni Yeprem xana, Təbrizdə xalq hərəkatını bogmaq üçün rus-kazak dəstəsinin başçısı Vladimir Lyaxova hakimiyyəti verməklə öz mahiyyətini, milli kimliyini itirdi. Böyük Nizami demişkən, "Sən əgər ədalətli deyilsənsə, deməli türk deyilsən" düşüncəsi ilə xalq arasında mərkəzi hakimiyyətin "özündən" olmadıgı düşüncəsi yayılmaga başladı. Xiyabani hərəkatı zamanı da mərkəzi hakimiyyəti özünün xilaskarı olaraq tanımayan azərbaycanlılar agır və əzablı illəri yaşadılar.

Fransanın Təbrizdəki konsulu Alfons Nikolyanın hesabatında deyilir ki,İranı Asiyanın digər hissələri ilə birlikdə iki təsir dairəsi arasında bölən 31 avqust 1907-ci il tarixli İngiltərə-Rusiya müqaviləsi bu cografiyada Qacarların hakimiyyətini minimuma çatdırmışdı.

DOI:10.30546/gdu.2023.147-151

Hakimiyyət milli kimliyini itirmiş, Melkom xan, Yeprem xan, lyaxovlar ölkədə "meydan oxuyurdu".[1]

Bəlkə də bu səbəbdən Rza Pəhləvinin dövlət çevrilişində Azərbaycan çox böyük həssaslıq göstərmədi. Qacar şahzadələri də uzun müddət Pəhləvilərin himayəsindən istifadə etdi, bütün mülk və əmlaklarını qoruyub saxladılar və onlara dövlət qarşısında ehtiram olundu. Pəhləvilərin anti türk siyasəti tədricən həyata keçirilir və açıq konfrantasiyaya girmirdilər. Ən böyük silah Azərbaycan şəhərlərində işsizlik, əyalətlərdə aclıq,yoxsulluq yaratmaqdan ibarət idi.

Pəhləvilər 21 Azər inqilabını qanla bogmaq üçün də azərbaycan əsilli zabitləri seçdi və onlara sədaqətlərini göstərmək üçün meydan verdi.İran ərazisindən çıxan sovet qoşunları Azərbaycanda silah saxlamadı və Tehran hakimiyyəti də Azərbaycana basqın adı ilə deyil, seçki keçirmək adı ilə daxil oldu.

Göründüyü kimi müasir iran mediyasında təqdim olunan "Azərbaycan azlıgı" fars çoxlugu ilə qarşı-qarşıya gəlmədi. Şah qoşununun generalları da,polkovnikləri də azərbaycanlı idi, Ərdəbildə və digər şəhərlərdə "ariyamehrə" firqəçiləri "qurban" kəsənlər də azərbaycanlılar idi.

Son yüz ildə **irançılıq** deyilən bir "ideolojı model" tətbiq olunmaqdadır. XX əsrin 20-30-cu illərində pəhləvilər irançılıq nəzəriyyəsini yaratdı, daha dogrusu bunu sifariş etdi və onu yaratdılar. Firdovsinin "Şahnamə"si İran mifalogiyasının yaradılması üçün "mənbə" hesab edildi. Çünki İran olmaq üçün düşmən tərəf yaratmaq lazım gəlirdi. Bu düşmən obrazı da Turan idi. Tarixdə olmayan "Turan" tarixdə siyasi məna daşımayan İranın düşməni rolunu oynamalı idi. Dogrudur ki, Turan dövləti olmayıb və "mən turanlıyam" deyən də olmayıb, ancaq Firdovsinin nəql etdiyi müharibədə "türklər" qalib gəldilər və sonrakı tarixi mərhələdə böyük cografiyada, o cümlədən də İranda dominant qüvvə oldular. Dünya ədəbiyyatının "üzqarası" hesab ediləcək Firdovsi haqqında mifalogiyanı uzun müddət bizə təblig edənlər ədəbiyyatda təhqir, alçaltma və "rasizm"motivlərinin yanlış oldugunu dilə gətirmirdilər. Firdovsi "Şahnamə"sini azərbaycan dilinə tərcümə edənlər də açıq-açıgına faşist motivləri ixtisar etmiş və bununla da 4 cildlik kitab bir cildə çevrilmişdir. Belə bir ixtisarın nəticəsində oxucu əsərdəki türk düşmənliyini, müəllifin türkə olan böyük nifrətini görmür və qiymətləndirmir. Bir azərbaycanlı oxucunun "Şahnamə" haqqında "təəssürat olaraq" onun poetikasını tərif edəndə, bir fars incə bir təbəssümlə qulaq asaraq başını yırgalayır və deyilənləri təsdiq edir. Lakin qeyd edilmir ki, "cəsərətli" və "qüdrətli" şair öldükdən sonra onun cənazəsini basdırmaq üçün qəbristanlıga belə buraxmayıblar. Onu Sasani təəssübü və zərdüştçilik motivlərinə görə hətta müsəlman belə hesab etməyiblər və evinin həyətində basdırıblar. Bunlar min il əvvəl olub. Bəs indi necədir?

Bir "tehran uşagı" (son əlli ilin anlayışıdır) bir təbrizli ilə söhbət edərkən təbrizli ondan soruşur: "Heç görmüsən ki, bir fars bir türklə üz-üzə dava eləsin;küçədə, bazarda ya məhəllədə?"

Yox, fars açıq-açıgına dava eləməz, xüsusilə də türklə. Ancaq bu o demək deyil ki, qabagından da qaçar. O, qarşısındakını öz tərəfinə çəkmək istəyər və bunun üçün də çox üsullara malikdir. Fars dava əvəzinə "məşhur şairlərdən" bir şeir (mədhiyyə) deyər, bəlkə diqqəti cəlb etsin. Qarşısındakına "qızını verər" ki, qohum olsun, bəlkə "agzı yumulsun". O qız, o türkün "agzını yumar". Bu sınanmış üsuldur. Dar ayaqda "biz iranlıyıq" üsulundan istifadə edər (bu üsul son illərdə işə yaramır.) Qarşısındakını şərliyə bilər, "təkliyə" bilər, özünü "görməməzliyə vura bilər" və s. Əgər bu imkanlı bir fars aristokratıdırsa, təcrübəli elitaya məxsusdursa, özünü "ag əbalı" möbidlərdən hesab edənlərdəndirsə, o təhlükəlidir, o,

[1]Bax:Charles Ganier. 1908 Tabriz Uprising through French Writings, Volume 27 (2023): Issue 1, Pages: 90–104, Online Publication Date: 13 Apr 2023

DOI:10.30546/gdu.2023.147-151

hətta qarşısındakını zəhərləyə biləcək qədər bir tədbir də  planlaya bilər. Yox, sadə bir adamdırsa, o, zatən mütidir, ya “haqqına qane” olub çəkilib gedər, ya da çılgın bir cavandırsa, özündən razı birini tapıb gətirər. Gətirdiyi adam sinəsini qabaga verərsə, məlum olar ki, onun da ya dədəsi türkdür ya da başqa millətin nümayəndəsidir. İranın mərkəzi şəhərlərində tez-tez eşidilən bir cümlə var-“Pedər-e bozorg-e mən həm tork bude...”(*mənim böyük babam da türk olub...*)

Ruhulla Xomeyninin vəfatından sonra bütün İran ictimaiyyəti “Rəhbərin” yerinə Müntəzirinin seçiləcəyinə əmin idi. O zaman böyük nüfuz sahibi olan Rəfsəncani və bir qrup İran elitası Xamneyini rəhbər seçməyə müvəffəq oldular. Məgər onlar bilmirdi ki, Xamneyi türkdür. Onun bütün yazılmış “tərcümeyi hallarında” aydın qeyd olunur ki, Xamneyi Şeyx Məhəmməd Xiyabaninin qaynı ogludur və Xorasanda yaşamaqlarına baxmayaraq, onların əsli Təbriz yaxınlıgında olan Xamnə kəndindəndir. Bu mənzərə Nadir şahın ölümündən sonra Zəndilərin hakimiyyəti saxlamaq üçün Səfəvi ailəsindən bir nəfər tapmaq və onu “şərti hakimiyyətə gətirərək” dövləti idarə etmək istəyini xatırladır.

Göründüyü kimi, Güney Azərbaycanın milli azadlıq hərəkatının düşmənləri, fars və qeyriləri deyil. Zira, bunlar türkün qabagına heç zaman çıxmayıb və çıxa bilməyiblər. Ən böyük düşmən bizim multikulturalizmimizdən irəli gələn tolerant baxışlarımız, ədalətə mütləq baxışımız, sekulyarlığa təmayülümüz və bir qədər də sadəlöhvlüyümüzdir.

Uzun müddət ictimai mühitdə fikir formalaşdı ki, “Fərəh türk qızıdır...” Tanınmış jurnalist onu Amerikada tapdı və ona mikrafonu uzadaraq “Sizə on milyon azərbaycanlı baxacaq, azərbaycan dilində bir cümlə deyin...” Məlum oldu ki, belə“mifləri” məqsədli olaraq yayırlar. Fərəh nəinki azərbaycanlı deyil, hətta azərbaycana nifrət edir və bu nifrət onun oglunda da özünü göstərir.

Xamneyi haqqında da “o azərbaycanlıdır...” deyənlər az bir müddətdən sonra bunu inkar etdilər və “oxorasanlıdır...” deməyə başladılar. Məlumdur ki, azərbaycanlıların gözləntisinə cavab vermədiyi halda ona nifrat yaranacaqdı və bunu bilirdilər. Lakin onu da bilirlər ki, Xamnənin ruhani ailələrindən Mirzə Fətəli Axundov kimi nəhəng azərbaycanlı da çıxıb.

Amerikada mühacir həyatı yaşayan güneylinin birisi, İsrail parlamentinin azərbaycanlıların hüquqları ilə əlaqədar bəyanatına protest etdi. Onun dərdi nə idi?  Kanadada “çörək qazanıb” İrana qayıtmaq üçün özünə yol qoyanları da anlamaq olar. Lakin İrana qayıtmaq üçün “anasını satmaq” nəyə lazımdır. Deyən yoxdur ki, “sənin dilindən tutub zorla çəkməyiblərki...”

Araz sahillərinin erməni işğalından sonra Azərbaycanda yerləşən diplomatik missiyaların ora səfəri zamanı İngiltərənin Azərbaycandakı səfiri Ceyms Şarp Araz çayının şəklini paylaşaraq sosial şəbəkə hesabında “Salam İran” yazması və buna İran səfirinin cavabında: “Narahat olmayın. Bütöv və güclü İranın parçalanmasını heç vaxt, heç yuxularında da görə bilməyəcəklər” deməsi hamının yaxşı bildiyi bir mənzərəni üzə çıxarır. İngilis səfiri məgər bilmirdi ki, Arazın obiri sahili də Azərbaycandır? İran səfiri də düzgün anlamışdı ki, salamın ünvanı “zavallı İran” deyil, güclü Azərbaycandır.

Deyilənləri ümumiləşdirərək belə bir nəticə ortaya çıxır ki, Məşrutə hərəkatı Güney Azərbaycanın siyasi xətitəsini müəyyənləşdirdi. Tarixdə ilk dəfə Güney Azərbaycanın ligitim siyasi xəritəsi tərtib edildi və azərbaycan xalqına miras qoyuldu. Lyaxov və Yeprem xan kimilər Azərbaycan milli hərəkatına  qacarların tapşırıgı ilə hücum etdi. Xiyabani hətəkatına da bu prizmada baxmaq olar. Tehran hakimiyyəti “domonant İran(fars) xalqının” gücü ilə Təbrizə yürüş etmədi.

Çox böyük təbligat maşını “torki xər” təbligatını 70 il yaydı. Bu şuarı “agzına alanın” ağzından nə qədər vurmaq olurdusa, o qədər də cavablarını verdilər. Lakin daxili bir iztirab

DOI:10.30546/gdu.2023.147-151

hər bir azərbaycanlının qəlbində var idi. Böyük liderin, Ulu öndərin "Mən fərx edirəm ki, Azərbaycanlıyan" deməsi milyonlar üçün qurur mənbəyi oldu.

21 Azər hərəkatını, onun nailiyyətlərini yox etmək üçün Tehran əgər Moskva, London və Vaşinqton "ərbablarından" dəstək almasaydı, Azərbaycana heç bir şey edə bilməzdi. Əslində Pəhləvi qoşunlarının zabitləri də azərbaycanlılardan formalaşdırılmışdı. Azərbaycan milli hərəkatının dəstəyi yalnız əli silahsız xalqdan ibarət idi. 21 Azər süqur etdi. Yalnız ideyaları yaşadı, milli hərəkatı da yaşatdı və bu gün da yaşamaqdadır.

Azərbaycan Milli Azadlıq hərəkatının düşmənləri marginallaşdırılmış insanlar, dövlət qurumlarında himayə görən məmurlar, xüsusi xidmət orqanlarında hazırlanmış casuslar və kiçik maraqlarına görə "anasını satmaga hazır olan" az bir qrup insandırlar. Odur ki, hal-hazırda İran cografiyasında "Azadlıq, Ədalət və Milli hökumət" şuarlarının qarşısında duracaq, diqqəti cəlb edə biləcək qüvvə yoxdur və əslində heç vaxt da olmayıb.Güney Azərbaycan İran dövlətinə heç vaxt məglub olmayıb, əksinə, böyük Şəhriyar demişkən "Azərbaycan ogulları İran üçün şəhid olub".

Bizim üzərimizə fars qoşunu göndərilməyəcək. Kürdlə, giləklə isə bizim problemimiz yoxdur. Onlar İran üçün şəhid olmazlar. Bizim üzərimizə bizdən olanları göndərəcəklər. "Arvadını axtaranlar", Bəndər Abbasın neft gəlirlərindən pay almaq istəyənlər, musəvilər,xamneyilər, mələkutilər, şəriətmədarilər və s.

***References***

1. Kazimi, P. (2023). Kitab Qenosidi və Onun Digər Repressiya Formalarından Fərqi . Akademik Tarih ve Düşünce Dergisi , 10 (2) , 32-42 . Retrieved from https://dergipark.org.tr/en/pub/atdd/issue/76976/1290343
2. Behrangi, A. (1378). My brother Samad Behrangi, the story of his life and death. Publisher. Memorial book of Ustad Muhammad Ali Farzana.
3. Kazimi, P. F. O. (2021). Democratic countries and ways of influencing the nature of information. *Technium Soc. Sci. J.*, *22*, 847.
4. Kazimi, P. F. (2021). Dynamic Development of Information Technologies, Organization of Library Services Using Digital Space and Through Social Networks. *AJESS/article/view/30407*.
5. KAZIMİ, P. F. (2017). Sosyal ve Kültürel Ortamın Oluşmasında Kitap ve Kütüphanelerin Rolü. *Türk Kütüphaneciliği*, *31*(2), 245-250.

## «ВРАГИ» НАЦИОНАЛЬНОГО ДВИЖЕНИЯ ЮЖНОГО АЗЕРБАЙДЖАНА
## (этнокультурные процессы в иране в XX веке)

***Доц. Казими Парвиз Фирудин***

***Резюме***

XX əsrdə İran adlanan cografiyada baş verən sosial, siyasi və iqtisadi proseslər orada formalaşan dövlətlərin milli-mədəni proseslərə münasibətinə də öz təsirini göstərdi. İnqilablarla zəngin olan iyirminci əsrdə milli, dini, ideolojı və siyasi proseslərin nəticəsində mədəni seqreqasiya həyata keçirilməyə başlandı və bu proses hal0hazıtda da davam etməkdədir.

Məqalə, konkret tarixi faktlara əsaslanaraq XX əsrdən başlayaraq İranda yaradılmış dövlətlərin müxtəlifliyinə baxmayaraq həyata keçirdiyi seqreqasiyanın bu gün də qorunub saxlanılması hadisəsini öyrənir və mədəni aporteidun dini, ideolojı və siyası xüsusiyyətlərini üzə çıxarır.

DOI:10.30546/gdu.2023.147-151

**"ENEMIES" OF THE NATIONAL MOVEMENT OF SOUTH AZERBAIJAN (ethno-cultural processes in iran in the XX century)**

***Kazimi Parviz Firudin***

***Summary***

The social, political and economic processes that took place in the geography called Iran in the 20th century also had an impact on the attitude of the states formed there to the national-cultural processes. Cultural segregation began to be implemented as a result of national, religious, ideological and political processes in the twentieth century, rich in revolutions, and this process continues today.

Based on specific historical facts, the article studies the preservation of the segregation implemented in Iran since the 20th century despite the diversity of the states and reveals the religious, ideological and political features of cultural apartheid.

***Rəyçi: t.f.d. S.İ.Məmmədova.***
***Kitabxanaşünaslıq kafedrasının 14.06.23 tarixli iclası.***
***Daxil olma tarixi 20 iyun 2023-cü il***